# "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348; 1999, № 11, maddə 609; 2000, № 11, maddə 776; 2001, № 9, maddə 576, № 12, maddələr 733, 736; 2002, № 12, maddə 706; 2004, № 7, maddə 505, № 12, maddə 976; 2005, № 1, maddə 2, № 12, maddə 1082; 2006, № 11, maddə 923, № 12, maddə 1018; 2007, № 1, maddə 4, № 12, maddə 1193; 2008, № 2, maddə 49, № 4, maddə 254, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 12, maddə 970; 2010, № 4, maddə 276, № 11, maddə 949; 2011, № 10, maddə 883; 2013, № 11, maddə 1284, № 12, maddə 1487; 2014, № 10, maddə 1171; 2016, № 4, maddə 657, № 6, maddə 971; 2017, № 3, maddə 336, № 7, maddə 1279; 2018, № 3, maddələr 369, 396, № 5, maddələr 870, 894, № 12 (I kitab), maddə 2502; 2019, № 1, maddə 35, № 3, maddə 380; 2020, № 5, maddə 521, № 6, maddə 667, № 7, maddə 826, № 8, maddə 1015, № 12 (I kitab), maddə 1450; 2021, № 7, maddə 711, № 8, maddə 896, № 12, maddə 1309; 2022, № 12, maddələr 1388, 1403; 2023, № 1, maddələr 10, 36, № 4, maddə 464) 14.8-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. birinci hissədə "podratçısı ilə birbaşa müqavilə bağlamış subpodratçı, habelə bu şəxslər tərəfindən" sözləri "həmin podratçı ilə birbaşa müqavilə bağlamış subpodratçı ilə bağlanmış əmək müqaviləsi (kontraktı) əsasında" sözləri ilə əvəz edilsin;

1.2. ikinci hissə üzrə:

1.2.1. birinci cümləyə "öz seçimi" sözlərindən əvvəl ", sığortaolunanın (yeni işəgötürülən şəxslər istisna olmaqla) seçim hüququ cari il ərzində yarandıqda isə bu hüququn yarandığı gündən 15 gün ərzində" sözləri əlavə edilsin;

1.2.2. ikinci cümlədə "qeyd olunan müddətdə" sözləri "yanvar ayının 15-dək" sözləri ilə, "əvvəlki ildə həmin sığortaolunanın" sözləri "həmin sığortaolunanın əvvəlki ildəki" sözləri ilə əvəz edilsin;

1.2.3. üçüncü cümlə aşağıdakı redaksiyada verilsin:

"Təqvim ili ərzində qeyd edilən kateqoriyadan olan yeni işəgötürülən şəxsə münasibətdə həmin şəxsin əmək müqaviləsi bağlamaq üçün verdiyi ərizədə qeyd etdiyi seçimi tətbiq edilir və təqvim ilinin sonunadək həmin seçim dəyişdirilmir.";

1.3. aşağıdakı məzmunda üçüncü və dördüncü hissələr əlavə edilsin:

"Sığortaolunanın seçim hüququ cari il ərzində yarandıqda məcburi dövlət sosial sığorta haqqının bu maddənin birinci hissəsinə uyğun olaraq hesablanması seçim hüququnun yarandığı gündən etibarən həyata keçirilir.

Sığortaolunan seçim hüququnu itirdikdə məcburi dövlət sosial sığorta haqqının bu maddənin birinci hissəsinə uyğun olaraq hesablanması seçim hüququnun itirildiyi gündən etibarən dayandırılır.".

**Maddə 2.** Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2023-cü il*

Azərbaycan. - 2023.- 28 dekabr (№ 285).- S.3.